**Həmin gün:**

– Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə-Afrika İqtisadi və İş Forumunun açılış mərasimindəki çıxışında deyib: "Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə qeyri-adekvat münasibəti səbəbindən 30 ildir ki, davam edən bu məsələnin yeganə həlli işğala son qoymaqdır. İşğalın qanuniləşdirilməsi təkliflərinin ərazidə tətbiq olunması şansı yoxdur. Torpaqların azad edilməsi istiqamətində Azərbaycanın son dərəcə qətiyyətli olduğunu görürük. Türkiyə olaraq bütün qəlbimizlə torpaqlarını geri almaq üçün apardığı bu haqlı mübarizəsində Azərbaycanı dəstəkləyirik";

Müdafiə Nazirliyinin məlumatında Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgərinin fərarilik etdiyi də qeyd olunub.

Məlumatda daha sonra məğlubiyyətlə üzləşən Ermənistan silahlı qüvvələrinin Goranboy, Tərtər, Ağdam, Ağcabədi rayonlarını, o cümlədən "Toçka-U" taktiki raket kompleksindən istifadə edərək Bərdə rayonunu artilleriya və raket atəşinə tutduğu bildirilib: "Azərbaycanın mülki əhalisi arasında ölən və yaralananlar var. Ordumuz adekvat tədbirlər görür. Azərbaycan Ordusunun atəş zərbələri endirdiyi bütün hədəflər beynəlxalq humanitar hüquq normaları və prinsiplərinə




– Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qətərin "The Peninsula" qəzetinə müsahibəsində bildirib ki, Ermənistan aldığı ağır zərbədən sonra Türkiyəni bu döyüşlərin içində göstərməyə cəhd etməklə çətin və çarəsiz vəziyyətə düşdüyünü təsdiqləyir;

– Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın Azərbaycana hücumları ilə bağlı açıqlamasında deyib: "Ermənistan terror təşkilatları ilə əməkdaşlığı dayandırmalı və Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal çıxmalıdır... Hər zaman və hər yerdə qürurla ifadə etdiyimiz kimi, Azərbaycanın dərdi bizim dərdimiz, sevinci bizim sevincimizdir. Can qardaşlarımızın yanında olduq, bundan sonra da haqlı mübarizəsində sonadək Azərbaycanın yanında olacağıq";

– Türkiyə Milli Müdafiə Nazirliyi rəsmi internet səhifəsində paylaşım yayıb: "Ermənistan işğal etdiyi Dağlıq Qarabağı dərhal boşaltmalı və törətdiyi insanlıq cinayətlərinin hesabını verməlidir";

– Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində yazıb: "Erməni əsilli Fransa vətəndaşları Azərbaycanın mülki əhalisinə və hərbçilərinə hücumlar edən muzdlular qismində Ermənistan silahlı qüvvələrinin sıralarında fəaliyyət göstərirlər... Azərbaycanı ittiham

uyğun olaraq legitim xarakter daşıyır".

"Döyüşdə iştirak edən bölmələrimizin maddi – texniki təminat baxımından heç bir problemi yoxdur. Şəxsi heyət, o cümlədən hərbi texnika və döyüş vasitələrimiz bütün növ təminat vasitələri ilə tam şəkildə təmin edilir. Ordumuz əks-hücum əməliyyatı başlayandan bugünədək işğaldan azad olunmuş torpaqlarımızdan bir addım belə geri çəkilməyir. Əksinə, əməliyyat planına uyğun bütün tədbirlər fasiləsiz davam etdirilir. İstiqamət Qarabağdır. Qələbə bizimlədir", - deyə məlumatda vurğulanıb.

### Ermənistan hərbi cinayətlərini davam etdirir

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 8-i saat 13:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 31 nəfər həlak olub, 154 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.



etmək əvəzinə, biz ölkələri öz vətəndaşlarını dayandırmaq üçün tədbirlər görməyə çağırırıq;

– Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramov ilə Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Heiko Maas arasında telefon danışığı olub. Tərəflər arasında müharibədəki vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb.

### Ordumuz uğurla irəliləyir

Müdafiə Nazirliyi tərəfindən Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirilib: "Azərbaycan Ordusunun qətiyyətli əks-hücum əməliyyatı davam edib. Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərən düşmənin pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal vurulub".

Brifinqdə Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına bölmələrimiz tərəfindən artilleriya zərbələri endirildiyi qeyd edilib. Həmçinin yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonunun dəqiq artilleriya atəşi ilə darmadağın edildiyi vurğulanıb. Bütün bunlarla bərabər, ordumuzun dəqiq atəş zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsinin sıradan çıxarıldığı diqqətə çatdırılıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

### Vətən müharibəsi dünya mətbuatında

– Rumıniyanın AGERPRES milli xəbər agentliyi Ermənistanın növbəti hərbi təcavüzü barədə geniş məqalə yayımlayıb;

– Ukraynanın "Qordon" nəşri Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun raket və artilleriya mərmilərindən intensiv atəşə tutulduğunu yazıb;

– Misir mətbuatında Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların müharibə ilə bağlı bəyanatı yayımlanıb;

– Azərbaycanın ədalətli mövqeyi ilə bağlı misirli jurnalist və politoloqlar Məhəmməd Səlamə, Əhməd Əbdo Tərabik, Əbubəkir Əl Məcd, Əmirə Əbdülhəkim, Məhəmməd Rəfətin, iordaniyalı politoloq Ömər əl-Armutinin məqalələri yerli KİV-lərdə dərc edilib;

– Rusiyanın "Novaya qazeta" nəşri Ermənistan hərbiçilərinin rəzil durumundan yazıb.

*"Xalq qəzeti"*